*Azərbaycan Respublikası Auditorlar Palatası*
*Şurasının 2018-ci il 05 oktyabr tarixli 304/1*
*nömrəli qərarı ilə təqsdiq edilmişdir*

***ƏLAVƏ 1***

**Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti müqaviləsinin bağlanılmasına dair Auditorlar Palatasının məlumatlandırılması**

**QAYDASI**

1. Bu Qayda auditor təşkilatları və sərbəst auditorların auditor xidməti müqaviləsinin bağlanılmasına dair Auditorlar Palatasını məlumatlandırmanın şərtlərini müəyyən edir (bundan sonra – «məlumatlandırma»).

2. Auditorlar Palatasını məlumatlandırma auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətləri göstərilməsinə dair müqavilə imzalandığı gündən 10 iş günü ərzində həyata keçirilir.

3. Məlumatlandırma Auditorlar Palatası Şurasının 2018-ci il 5 oktyabr tarixli 304/1 №-li qərarının 2-ci Əlavəsinə uyğun olaraq tərtib edilir.

4. Məlumatlandırma elektron və ya yazılı formada tərtib edilir.

5. Məlumatlandırma auditor təşkilatının rəhbəri, sərbəst auditor və ya onların səlahiyyətli nümayəndələri tərəfindən imzalanır:

1) elektron sənəd formasında tərtib edildikdə elektron və ya asan imza ilə;

2) yazılı formada təsdiq edildikdə öz imzası ilə.

6. Məlumatlandırma aşağıdakı üsullardan biri vasitəsilə həyata keçirilir:

1) telekommunikasiya rabitəsi kanalları ilə;

2) təqdimetmə xəbərdarlığı şərti ilə sifarişli poçtla;

3) bilavasitə Auditorlar Palatasına təqdim olunmaqla.

7. Məlumatlandırma tarixi hesab edilir:

1) telekommunikasiya rabitəsi kanalları ilə göndərilmə günü;

2) poçtla sifarişli təqdim etmə şərti ilə göndərilmə günü;

3) Auditorlar Palatası tərəfindən qəbul haqda qeyddə göstərilən gün.

8. Məlumatlandırmada hər hansı bir məlumatın dəyişdiyi zaman və ya müqavilə ləğv edildikdə, dəyişiklik barədə məlumat Palataya dəyişikliyin baş verdiyi gündən 10 iş günü ərzində təqdim edilir.